

"Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var".

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 16 dekabr 2023-cü il №95 (2807) https://mod.gov.az Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev COP29-un Azərbaycanda keçirilməsi ilə bağlı paylaşım edib




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar rəsmi sosial şəbəkə hesablarında paylaşım edib.

AZƏRTAC paylaşımı təqdim edib: "Azərbaycan iqlim dəyişikliklərinə qarşı qlobal mübarizəni sistemli olaraq dəstəkləyir və enerji səmərəliliyi ilə bağlı tədbirlər görür. Təmiz ətraf mühit və yaşıl inkişaf bizim milli prioritetlərimizdir. Bərpaolunan enerji Azərbaycanda geniş vüsət almağa başlayır.

BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) 2024-cü ildə ev sahibliyi etməyimiz iqlim dəyişikliklərinə qarşı mübarizə üzrə qlobal səylərə öz töhfəmizi vermək qətiyyətimizdən irəli gəlir. Azərbaycanın namizədliyinə verilən dəyərli dəstəyə görə bütün ölkələrə səmimi təşəkkürümü bildirirəm.

Biz COP29 sessiyasının uğurlu hadisəyə çevrilməsi üçün əlimizdən gələni edəcəyik.

BƏƏ-də COP28-in yüksək səviyyədə təşkil edilməsinə görə Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Şeyx Məhəmməd bin Zayed Əl Nəhyana minnətdarlığımı bildirir və iqlimlə bağlı birgə tədbirlərimizi davam etdirməyimizi səbirsizliklə gözləyirəm".

# COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib

*Dekabrın 15-də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un gələn il ölkəmizdə keçirilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə müşavirə keçirilib.*

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı müşavirədə çıxış edib.



**Prezident İlham Əliyevin çıxışı**

- Bir neçə gün bundan əvvəl ölkəmiz növbəti böyük uğura imza atmışdır, COP29 beynəlxalq konfrans Azərbaycanda, Bakıda keçiriləcək. Bu qərarı bütün dünya ölkələri bir neçə gün bundan əvvəl qəbul etmişdir və beləliklə, Azərbaycana növbəti dəfə böyük etimad və böyük hörmət göstərilmişdir. Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq. Bizim müstəqil siyasətimiz, prinsipial mövqeyimiz, beynəlxalq hüquqa bağlılığımız, sədaqətimiz və eyni zamanda, ölkə ərazisində suverenliyin bərpa edilməsi bizə olan hörməti daha da artırdı.

Bu hadisənin önəmi, o cümlədən ondadır ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur və beləliklə, bir daha bütün dünya ictimaiyyəti Azərbaycana öz dəstəyini ifadə etmişdir. Onu da bildirməliyəm ki, Bakıda COP29 konfransının keçirilməsi beynəlxalq aləmin hər bir üzvünün razılığı ilə mümkün olmuşdur. Yəni, burada yekdil mövqe bir daha özünü göstərdi.



Düzdür, antiterror əməliyyatından sonra bəzi Qərb ölkələri Azərbaycana əsassız ittihamlar irəli sürmüşdür. Bizə qarşı irəli sürülmüş bu ittihamların heç bir əsası yoxdur. Çünki Azərbaycan öz suveren ərazisində separatçılığa qarşı, işğalçılara qarşı antiterror əməliyyatı keçirərək beynəlxalq hüququn aliliyini özü bir daha təmin etmişdir və eyni zamanda, bütün humanitar normalara riayət edərək öz suverenliyini bərpa etmişdir. Bəzi Qərb ölkələri, onların arasında təbii ki, ənənəvi olaraq Fransa bununla barışmaq fikrində deyil. Halbuki artıq beynəlxalq birlik də görür ki, hətta Ermənistan bu vəziyyətlə barışıb və COP29 konfransının keçirilməsi bunu bir daha göstərir. Ancaq Fransada bəzi siyasi liderlər ermənilərdən daha çox erməni olmağa çalışırlar. Ancaq onlar da bu vəziyyətlə barışmağa məcbur olacaqlar.

Bir də bəzi hallarda beynəlxalq aləm, beynəlxalq birlik anlayışı Qərbdə təhrif edilir. Beynəlxalq birlik 30-40 ölkə deyil. Beynəlxalq birlik dünyanın bütün ölkələridir və bu ölkələr yekdilliklə Azərbaycana öz böyük dəstəyini göstərmişdir. Bu, birinci dəfə deyil. Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir.

İrimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi təbii ki, üzərimizə böyük məsuliyyət qoyur. Ancaq biz bu günə qədər bir çox beynəlxalq tədbirlər keçirmişik. Hətta bu il Beynəlxalq Astronavtika Konqresini böyük müvəffəqiyyətlə keçirmişik. Onu da hər kəs bilir ki, bu mötəbər beynəlxalq tədbir ikinci dəfə Bakı şəhərində keçirilib. 50 il bundan əvvəl sovet Azərbaycanının paytaxtı olan Bakıda, bu il isə müstəqil Azərbaycanın paytaxtı olan Bakıda bu tədbir keçirilmişdir. Ancaq təbii ki, COP29 bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Hətta Avropa Oyunlarını xatırlasaq, o vaxt 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdir. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq.

Hesab edirəm ki, COP29 dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biridir. Ölkələrin təmsilçiliyi nöqteyi-nəzərindən BMT Baş Assambleyasından geri qalmır. Ona görə biz dərhal bütün hazırlıq işlərinə start verməliyik. Bizim vaxtımız o qədər də çox deyil, 11 aydan az vaxtımız var. Ona görə mən hesab etdim ki, birinci müşavirəni öz sədrliyimlə keçirim, bütün lazımi tapşırıqları verim. Bu tapşırıqların yerinə yetirilməsi barədə müntəzəm olaraq mənə məlumat veriləcək.

Mən şübhə etmirəm ki, COP29 beynəlxalq konfransını da biz yüksək səviyyədə keçirəcəyik, bu, ölkəmizin, xalqımızın növbəti böyük uğuru olacaq. Eyni zamanda, Azərbaycan neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir və dünyada hər kəs bir daha görəcək ki, bizim gündəliyimiz yaşıl enerji ilə bağlıdır. Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli hazırda bizim enerji siyasətimizin prioritetidir. Bu, reallıqdır və bütün dünya bunu bir daha görəcək.

# Gənclərin hərbi sahədə təhsil almasının təşviq edilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti peşəkar gizir heyətinin hazırlanması məqsədilə Bakı, Gəncə şəhərlərində və Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyində 3 xüsusi təyinatlı hərbi kolleci (bundan sonra - hərbi kollec) üç ay müddətində yaratsın və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2. 2024-2025-ci tədris ilindən başlayaraq təhsil almaq üçün Azərbaycan Respublikası Müdafiə Nazirliyinin strukturuna daxil olan Milli Müdafiə Universitetinin tabeliyindəki ali təhsil müəssisəsinin bakalavriat səviyyəsinə, o cümlədən bakalavriat səviyyəsinin hazırlıq kursuna (bundan sonra - ali təhsil müəssisəsi) və hərbi kolleclərə qəbul olunmuş kursantlar üçün 500 (beş yüz) manat, hərbi liseylərə qəbul olunmuş kursantlar üçün 300 (üç yüz) manat məbləğində birdəfəlik ödəmə təsis edilsin.

3. 2024-2025-ci tədris ilindən başlayaraq bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan təhsil müəssisələrində təhsil alan kursantlar üçün təhsil müddətində aşağıdakı aylıq ödəmələr təsis edilsin:

3.1. ali təhsil müəssisəsi üzrə:

3.1.1. 150 (yüz əlli) manat məbləğində təqaüd;

3.1.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.1.3. 200 (iki yüz) manat məbləğində hesabda yığılan ödəniş;

3.2. hərbi kolleclər üzrə:

3.2.1. 100 (yüz) manat məbləğində təqaüd;

3.2.2. 200 (iki yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.2.3. 150 (yüz əlli) manat məbləğində hesabda yığılan ödəniş;

3.3. hərbi liseylər üzrə:

3.3.1. 50 (əlli) manat məbləğində təqaüd;

3.3.2. 100 (yüz) manat məbləğində ailə üzvlərinə maddi yardım;

3.3.3. 100 (yüz) manat məbləğində hesabda yığılan ödəniş.

4. 2024-2025-ci tədris ilindən başlayaraq ali təhsil müəssisəsinə və hərbi kolleclərə daxil olan kursantlar həmin təhsil müəssisələrindən məzun olaraq Azərbaycan Ordusunda 5 təqvim ili zabit və ya gizir kimi həqiqi hərbi xidmət keçdikdən sonra yaşayış sahəsinin alınması üçün Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun vəsaiti hesabına güzəştli ipoteka kreditindən istifadə etdikdə müvafiq yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilsin.

5. Müəyyən edilsin ki:

5.1. bu Fərmanın 3.1.3-cü, 3.2.3-cü və 3.3.3-cü yarımbəndlərində göstərilən ödənişlər bu Fərmanın 2-ci hissəsində nəzərdə tutulan kursantların hər biri üçün açılmış hesabda yığılır;

5.2. bu Fərmanın 5.1-ci bəndinə uyğun olaraq hesabda yığılan vəsait və həmin vəsaitin idarə olunmasından əldə edilən gəlir aşağıdakı hallarda ödənilir:

5.2.1. ali təhsil müəssisəsini və hərbi kollecləri bitirmiş məzunlara - Azərbaycan Ordusunda müvafiq qaydada zabit və ya gizir kimi vəzifəyə təyin edilərək həmin vəzifənin icrasına başladıqda;

5.2.2. hərbi liseyləri bitirmiş məzunlara - ali təhsil müəssisəsinə qəbul olduqda;

5.3. bu Fərmanın 2-ci və 3-cü hissələrində nəzərdə tutulan ödəmələr (bundan sonra - ödəmələr) dövlət büdcəsinin vəsaiti hesabına Azərbaycan Respublikasının Müdafiə Nazirliyi tərəfindən ödənilir;

5.4. bu Fərmanın 4-cü hissəsində nəzərdə tutulan şəxslər güzəştli ipoteka kreditindən istifadə etdikdə onlara "Azərbaycan Ordusunun hərbi qulluqçularının sosial müdafiəsinin gücləndirilməsi tədbirləri barədə" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 28 dekabr tarixli 569 nömrəli Fərmanının müddəaları şamil olunmur.

6. Hərbi kolleclərin fəaliyyətinin təşkili və zəruri infrastrukturun yaradılması məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə ilkin olaraq 2 (iki) milyon manat məbləğində vəsait ayrılsın.

7. Azərbaycan Respublikasının Nazirlər Kabineti üç ay müddətində:

7.1. "Gənclərin Azərbaycan Respublikası Müdafiə Nazirliyinin xüsusi təyinatlı təhsil müəssisələrində təhsil almalarına dair 2024-2033-cü illər üçün Tədbirlər Planı"nın layihəsini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.2. ödəmələrin verilməsi, vəsaitlərin hesablarda yerləşdirilməsi və idarə edilməsi, habelə hesabda yığılan vəsaitin idarə olunmasından əldə edilən gəlirlər də daxil olmaqla həmin vəsaitlərin ödənilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

7.3. bu Fərmanın 4-cü hissəsinə uyğun olaraq güzəştli ipoteka krediti üzrə yaşayış sahəsinin qiymətinin 15 faizədək olan hissəsinin maliyyələşdirilməsi, habelə güzəştli ipoteka kreditinin bir hissəsinin ödənilməsinə dövlət tərəfindən maliyyə dəstəyi göstərilməsi ilə bağlı təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

7.4. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

8. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi:

8.1. bu Fərmanın 2-4-cü hissələrində nəzərdə tutulan ödəmələrin maliyyələşdirilməsi məqsədilə tələb olunan vəsaitə dair təkliflərini müvafiq illərin dövlət büdcəsində nəzərdə tutulması üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim etsin;

8.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

9. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmanın 6-cı hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 dekabr 2023-cü il

# "Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram**:

1. "Hərbi kadrlar hazırlayan təhsil müəssisələri kursantlarının müavinətlərinin artırılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 29 noyabr tarixli 1789 nömrəli Sərəncamında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, № 11, maddə 978; 2008, № 6, maddə 496; 2010, № 7, maddə 684; 2014, № 11, maddə 1497; 2018, № 9, maddə 1859; 2022, № 3, maddə 240) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1-ci hissədən "Heydər Əliyev adına Hərbi İnstitutun," sözləri çıxarılsın;

1.2. 2-ci hissədən "Heydər Əliyev adına Hərbi Liseyin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və" sözləri çıxarılsın.

2. Bu Sərəncam 2024-cü il sentyabrın 1-dən qüvvəyə minir.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 14 dekabr 2023-cü il

# Azərbaycan və Qazaxıstan arasında hərbi əməkdaşlıq məsələləri müzakirə olunub





Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev ölkəmizdə işgüzar səfərdə olan Qazaxıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin müavini - Əməliyyat Planlaşdırılması Departamentinin rəisi general-mayor Marat Aymaşevin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, nümayəndə heyəti əvvəlcə Şəhidlər xiyabanına gələrək ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarlarını ziyarət edib, üzərinə gül dəstələri düzüb, xatirələrinə ehtiram nümayiş etdirib.

General-polkovnik Kərim Vəliyev qonaqları salamlayaraq onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib. Azərbaycan və Qazaxıstan arasında ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib. Bu cür görüşlərin hərbi əməkdaşlığın genişləndirilməsi baxımından zəruriliyi xüsusi vurğulanıb.



Səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən general-mayor M.Aymaşev qarşılıqlı təcrübə mübadiləsinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə ölkələrimiz arasında hərbi əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivləri, eləcə də qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilib.

Qazaxıstanlı nümayəndə heyəti daha sonra Əməliyyat Baş İdarəsinə gəlib. Baş idarə rəisi general-leytenant Azər Əliyevlə keçirilən görüşdə hərbi və hərbi təhsil sahələrində əməkdaşlığa, o cümlədən 2024-cü il ərzində birgə təlimlərin keçirilməsinə dair geniş fikir mübadiləsi aparılıb.

Sonda Müdafiə Nazirliyinin və Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda məntəqələrinə, Milli Müdafiə Universitetinin Hərbi İdarəetmə İnstitutunun Hərb Oyunları Mərkəzinə gələn qonaqlara buranın əsas fəaliyyət istiqamətləri, imkan və qabiliyyətləri barədə ətraflı məlumatlar verilib.





# ƏÜO-da Ulu Öndərin 100-cü ildönümü və cənab İlham Əliyevin Prezident seçilməsinin 20 illiyi ilə bağlı tədbirlər keçirilir



*Əlahiddə Ümumqoşun Orduda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü və cənab İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsinin 20 illiyi ilə əlaqədar silsilə tədbirlər davam edir.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Əlahiddə Ümumqoşun Ordunun hərbi hissələrinin və Heydər Əliyev adına Hərbi Liseyin komandaları arasında viktorina keçirilib. Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi yad edilib, Dövlət himnimiz səsləndirilib.

Çıxışlar zamanı dahi lider Heydər Əliyevin Azərbaycanın dövlət müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunub saxlanılması, eyni zamanda, işğal olunmuş torpaqlarımızın azad olunmasını təmin etmək qabiliyyətinə malik Silahlı Qüvvələrin yaradılması yönündə apardığı mütərəqqi islahatlar barədə danışılıb.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarxlar nümayiş olunub, Ulu Öndərə həsr olunmuş şeirlər səsləndirilib, rəqs və musiqi nömrələri ifa edilib.

"Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" devizi altında təşkil olunan viktorinada komandalar Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfli və mənalı ömür yolu, siyasi fəaliyyəti, ölkəmizin tarixi, ordumuzun uğurları və digər mövzularda sualları cavablandırıblar.

Gərgin bilik mübarizəsi şəraitində keçən viktorinada "Motoatıcılar" komandası 1-ci, "Hava Hücumundan Müdafiə" komandası 2-ci, "Rabitəçilər" komandası isə 3-cü yerə layiq görülüb.



Silsilə tədbirlər çərçivəsində Əlahiddə Ümumqoşun Ordunun daimi dislokasiya məntəqələri ilə bərabər ön xətt bölmələrində də ictimai-siyasi hazırlıq məşğələləri keçirilib. Məşğələlərdə bildirilib ki, müasir tariximizə möhtəşəm 20 il kimi yazılan ötən dövrdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın siyasi, iqtisadi imkanları genişləndirilib, müasir ordumuz yaradılıb, ölkəmizin beynəlxalq arenadakı mövqeləri möhkəmləndirilib. Bütün bu nailiyyətlərin təməlində Ulu Öndər Heydər Əliyevin ideyalarının uğurla davam etdirilməsi və xalq-lider birliyi dayanır.



Hərbi hissə komandirlərinin ideoloji iş və mənəvi-psixoloji təminat üzrə müavinlərinin iştirakı ilə "Bizim sözümüz imzamız qədər dəyərlidir" mövzusunda keçirilən dəyirmi masada Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 20 illik fəaliyyəti dövründə ölkəmizin ordu quruculuğu, təhsil, gənclər-idman, iqtisadi inkişaf, inzibati idarəçilik, xarici siyasət və digər sahələrdə sürətli inkişafı, əldə etdiyimiz böyük uğurlar, misilsiz və qürurverici qələbələr barədə danışılıb. Çıxışlar zamanı bildirilib ki, bundan sonra da xalqımız dövlət başçısının ətrafında sıx birləşərək böyük uğurlara imza atacaq.

# Bütün zəfərlərimizdə Əlahiddə Ümumqoşun Ordunun da payı var

Ulu Öndər Heydər Əliyevin uzaqgörənliyi və sərkərdəlik məharəti ilə Naxçıvandan başlanan müasir milli ordu quruculuğu prosesi Azərbaycanımızın suverenleyinin təmin edilməsi ilə nəticələndi. Güclü potensiala və yenilməz döyüş təcrübəsinə malik Azərbaycan Silahlı Qüvvələrinin Vətən müharibəsi və antiterror tədbirləri ilə yazdığı bu şanlı tarix Azərbaycanımızın inkişafı üçün möhkəm bünövrə olmaqla yanaşı, həm də regionumuz üçün sülhü və təhlükəsizliyi təmin edən önəmli amil rolunu oynadı.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda yaradılan ilk milli ordu qurumu Əlahiddə Ümumqoşun Orduya qədər böyük inkişaf yolu keçib. Belə ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçiləndən cəmi 4 gün sonra - 1991-ci il sentyabrın 7-də Naxçıvan Müdafiə Komitəsi yaradıldı. 1992-ci il sentyabrın 15-də Naxçıvanda ilk milli ordu hissələrindən biri olan "N" saylı əlahiddə gücləndirilmiş birləşmə formalaşdı. Əlahiddə gücləndirilmiş motoatıcı birləşmə uğurlu döyüş yolu keçərək 21 may 1995-ci ildə motoatıcı diviziyaya, 8 dekabr 1998-ci ildə isə Ordu birliyi səviyyəsinə qədər yüksəldi.



Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi ordu quruculuğu siyasətini layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasının müdafiə qabiliyyətinin möhkəmləndirilməsinə xüsusi diqqət yetirir. Ölkə Prezidentinin "Azərbaycan Respublikası Müdafiə Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2013-cü il 18 dekabr tarixli Fərmanına əsasən, Ordu birliyinin əsasında Əlahiddə Ümumqoşun Ordu yaradılıb.

Artıq 10 ildir ki, mövcudluğu hər birimizi qürurlandıran Əlahiddə Ümumqoşun Ordu həm döyüş təcrübəsi, həm şəxsi heyətinin peşəkarlığı, həm də arsenalında olan son model müasir silah sistemləri ilə ən çətin tapşırıqların icrasına qadirdir. Günnütdən Şuşaya yenilməz döyüş təcrübəsi qazanan Naxçıvandakı ordu, birləşmə, hissə və bölmələr Vətənimizin müdafiəsində ayıq-sayıq dayanır, döyüş növbətçiliyini yüksək peşəkarlıqla aparırlar. Naxçıvanın müdafiəsində uzun illərin böyük təcrübəsinə malik olan Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti peşəkarlıq və döyüş qabiliyyəti ilə öyünməyə haqlıdır. Çünki Əlahiddə Ümumqoşun Ordu ərazi bütövlüyümüzün və suverenliyimizin təmin olunmasında üzərinə düşən vəzifələri layiqincə yerinə yetirir.

Cari ilin sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanla birgə Naxçıvan Bərpa-istehsalat hərbi kompleksinin açılışında iştirak etmələri Əlahiddə Ümumqoşun Ordunun müdafiə potensialının və ən müasir silah sistemləri ilə təchizatının yüksək səviyyədə olmağından xəbər verir. Müxtəlif növ hərbi texnika, avadanlıq və cihazların təmiri və modernləşdirilməsi üçün nəzərdə tutulan həmin hərbi kompleks döyüş vasitələrinin həmişə saz və döyüşə hazır vəziyyətdə saxlanılmasına öz töhfəsini verəcək.

Burada Prezident İlham Əliyevin ordu quruculuğunda Azərbaycan Ordusunun Türkiyə modelinə uyğunlaşdırılmasını prioritet elan etməsi nəticəsində Naxçıvanın etibarlı müdafiəsini təmin edən Əlahiddə Ümumqoşun Ordunun döyüş potensialının daha da artırılmasındakı əhəmiyyəti diqqət çəkir. Bu mənada Azərbaycan-Türkiyə dostluq əlaqələri və hərbi əməkdaşlığının inkişafında Şuşa şəhərində imzalanmış "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin mühüm rolu var.

Əlahiddə Ümumqoşun Ordunun hərbçiləri Azərbaycan-Türkiyə birgə təlimlərində hər zaman peşəkarlıq və sarsılmaz qardaşlıq nümayiş etdirirlər. Real döyüş şəraitinə maksimum uyğunlaşdırılmış şəkildə keçirilən təlimlərdə qarşıya qoyulan bütün tapşırıqların uğurla icra edilməsi qeyd olunanlara əyani misaldır.

Göründüyü kimi, Azərbaycan Ordusu NATO standartlarını özündə ehtiva edən Türkiyə modelinə uğurla uyğunlaşdırılır. Əlbəttə ki, bu prosesdə zəfərlərlə dolu döyüş yolu keçən Əlahiddə Ümumqoşun Ordunun hərbi qulluqçularının peşəkarlığı, silah arsenalında mövcud olan müasir texnika, avadanlıq və vasitələr də öz sözünü deyir.

**Nəriman NƏCƏFOV**
**Naxçıvan Muxtar Respublikası**

# Azərbaycanlı hərbi qulluqçular Hüseyn Axundov və Aqşin Bəbirov əsirlikdən azad olundular

Dekabrın 13-də Qazax rayonunda Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında hərbçilərin qarşılıqlı surətdə azad edilməsi prosesi baş tutub.

AZƏRTAC xəbər verir ki, proses zamanı Ermənistan tərəfindən Azərbaycanın 2 hərbi qulluqçusu - Hüseyn Axundov və Aqşin Bəbirov azad olunub.

Azərbaycan tərəfi isə erməniəsilli 32 şəxsi qarşı tərəfə təhvil verib.

Qeyd edək ki, cari ilin aprel ayında Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Ordusunun itkin düşmüş əsgərləri - 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülmüşdü.

Dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Respublikası Baş nazirinin Aparatı arasında aparılmış danışıqlar nəticəsində humanizm prinsipinə sadiqlik ruhunda, xoş niyyət göstəricisi olaraq iki ölkə arasında qarşılıqlı etimad tədbiri kimi hərbçilərin azad edilməsi barədə razılıq əldə olunub.

# Ümummilli Lider Heydər Əliyevin anım günü münasibətilə tədbirlər keçirilib




*Ölkəmizdə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikasının Prezidentinin Sərəncamının icrası ilə əlaqədar müdafiə nazirinin təsdiq etdiyi plana əsasən, Azərbaycan Ordusunda keçirilən silsilə tədbirlər davam edir.*

Ulu Öndər Heydər Əliyevin zəkasının işığında qalib Azərbaycan ölkəsi daha xoşbəxt, firavan gələcəyə, zəfərdən-zəfərlərə doğru inamla irəliləməkdədir. Dövlətimizin başçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında son 20 ildə qazanılan bütün uğurlarda məhz xalqımızı və dövlətimizi zamanın bütün tarixi-siyasi sınaqlarından uğurla çıxaran dahi liderimizin ideyaları durur.

Ulu Öndər istəyirdi ki, hər bir Azərbaycan gənci vətənpərvər olsun. Milli dəyərlərimizi, milli ənənələrimizi, tariximizi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik böyük bir məfhumdur, bu sadəcə orduda xidmət etmək deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik.

General, zabit, gizir və əsgərlərin iştirak etdikləri Ulu Öndərin xatirəsinə həsr olunmuş ədəbi-bədii gecədə bu barədə ətraflı söhbət açılıb.

Tədbirdən öncə Ümummilli Liderin hərbi hissə qərargahının qarşısında ucaldılan abidəsi ziyarət olunub, önünə əklil və qızıl güllər düzülüb, xatirəsi ehtiramla yad edilib.

Əsgər klubunda keçirilən tədbirdə Vətən Müharibəsi Qəhrəmanı general-mayor Kənan Seyidov Ulu Öndərin Vətən, xalq, dövlət qarşısında müstəsna xidmətlərindən danışıb. Qeyd edilib ki, müasir, mütəşəkkil Azərbaycan Ordusunu yaratmaq, formalaşdırmaq Heydər Əliyevin adı ilə bağlıdırsa, bu ordunun respublikamızın suverenliyini, ərazi bütövlüyünü bərpa edən qalib bir ordu səviyyəsinə qaldırmaq dahi liderimizin özü qədər inandığı və gələcəyinə böyük ümidlər bəslədiyi Azərbaycan Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin adı ilə bağlıdır.





Nəzərə çatdırılıb ki, Heydər Əliyev mənalı həyatının 60 ilini öz xalqının bu günü və gələcəyi üçün yaşayıb, istər bir Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezidenti kimi Ulu Öndərin həyat amalı yalnız bütün varlığı qədər sevdiyi Azərbaycan xalqına, dövlətçiliyinə, ölkəmizin siyasi, iqtisadi və mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücünü və iradəsini yalnız müdrik və qədirbilən xalqımızdan almış, ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə belə yalnız və yalnız öz xalqına arxalanmışdır. Heydər Əliyevin ideyaları bugün də yaşayır, xalqımızı və ordumuzun şəxsi heyətini daha böyük uğurlu sabahlara aparmaqdadır.

Çıxış edən hərbi qulluqçular Ulu Öndər ilə bağlı xatirələrini söyləyib və bu gün də Heydər Əliyev ideyalarına sadiq qaldıqlarını, Müzəffər Ali Baş Komandanın hər bir əmrinə hazır olduqlarını bəyan ediblər.

Sonra tədbir iştirakçılarına Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü polkovnik Abdulla Qurbaninin eyniadlı poeması əsasında Bakı Bələdiyyə Teatrının hazırladığı "Xilaskar" adlı rekviyem-tamaşası təqdim olunub. Tamaşada Ulu Öndərin hər bir Azərbaycan əsgəri üçün örnək olan mənalı ömür yolundan, xidmətlərindən geniş söhbət açılıb.

Teatrın yaradıcı heyətinin hər il olduğu kimi, bu il də hərbi hissənin şəxsi heyəti qarşısında yeni proqramla çıxışı böyük maraq və alqışlarla qarşılanıb.

* * *



Əlahiddə Ümumqoşun Orduda Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anım günü münasibətilə tədbir keçirilib.

Tədbirdə çıxış edənlər dahi şəxsiyyət Heydər Əliyevin zəngin ömür yolundan və ordu quruculuğu istiqamətindəki tarixi fəaliyyətindən danışıb, Azərbaycanın rifahı naminə, o cümlədən beynəlxalq aləmdə ölkəmizin mövqeyinin möhkəmlənməsi sahəsində gördüyü işlər barədə geniş məlumat veriblər.

Çıxışlar zamanı Ulu Öndərin ən müqəddəs arzularından birinin Azərbaycanın ərazi bütövlüyünün təmin olunması ilə bağlı olduğu və görkəmli dövlət xadimi Heydər Əliyev tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunmasını təmin etmək qabiliyyətinə malik Silahlı Qüvvələrin yaradılması yönündə mütərəqqi islahatların aparıldığı diqqətə çatdırılıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Heydər Əliyev siyasətini uğurla davam etdirərək adını tariximizə torpaqlarımızın xilaskarı kimi qızıl hərflərlə yazdırıb.

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən film nümayiş olunduqdan sonra hərbi qulluqçu, kursant və şagirdlər ədəbi-bədii kompozisiya ilə çıxış edib, Ulu Öndərə həsr olunmuş şeirlər və mahnılar səsləndiriblər.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

Ölkəmizin hər yerində olduğu kimi, Gəncə və Şəmkir şəhərlərində də müasir Azərbaycan dövlətinin formalaşmasında əvəzsiz xidmətləri olan dahi şəxsiyyət, görkəmli dövlət xadimi, Ulu Öndər Heydər Əliyevin xatirəsi böyük ehtiramla yad edildi. Anım mərasimlərində iştirak edən məktəblilər, tələbələr, şəhər sakinləri, hərbi qulluqçular Ulu Öndərin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini böyük ehtiramla yad etdilər.




Anım mərasimlərində Ulu Öndərin həyat və fəaliyyəti haqqında geniş danışıldı. Bildirildi ki, Ulu Öndərin adı Azərbaycan xalqının tarixinə qızıl hərflərlə yazılmışdır. O, sovet hakimiyyəti illərində Azərbaycan Respublikasını iqtisadi, sosial, mədəni, elmi cəhətdən inkişaf etdirərək qüdrətli respublikaya çevirmişdi. Həmişə xalqının və Vətəninin taleyini düşünən Ulu Öndər böyük uğurlara imza atmışdır. Respublikamız iqtisadi cəhətdən yüksələrək qabaqcıl sənaye mərkəzinə çevrilmişdir. Elm, təhsil, səhiyyə və mədəniyyət sahəsində də əsaslı dönüş yaratmışdır. Sovet rəhbərliyində çalışarkən doğma Vətənini, xalqını düşünmüş və bir çox layihələrin həyata keçirilməsinə nail olmuşdur.

Ölkəmizin müstəqilliyini, dövlətçiliyini itirmək təhlükəsiylə üzləşdiyi mürəkkəb dönəmdə xalqımız Ulu Öndərin hakimiyyətə qayıdışını qətiyyətlə tələb etdi və ona Vətənimizin xilası üçün müraciət olundu. Bu müraciəti cavabsız qoymayan dahi şəxsiyyət xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdı. Çox keçmədi ki, o, xalqın dəstəyi ilə Prezident seçildi. Hakimiyyətinin ilk günlərindən Ulu Öndər dövlətçiliyin və müstəqilliyin qarantı sayılan Azərbaycan Silahlı Qüvvələrinin yenidən formalaşmasını diqqətdə saxladı. Qısa müddət ərzində ordu quruculuğunda əsaslı dönüş yaradıldı. Ordunun peşəkar kadrlarla təmin olunması üçün hərbi təhsil sistemində əsaslı islahatlar həyata keçirildi. Respublikamız bir çox beynəlxalq təşkilatların üzvü oldu. Ulu Öndərin müdrikliyi və uzaqgörənliyi sayəsində Azərbaycan dünyada tanındı. Qafqaz regionunun ən güclü və qüdrətli ölkəsinə çevrildi.

(Ardı 5-ci səhifədə)

# Ümummilli Lider Heydər Əliyevin anım günü münasibətilə tədbirlər keçirilib

(Əvvəli 4-cü səhifədə)





Qürurla demək olar ki, Ulu Öndərin memarı və qurucusu olduğu müasir Azərbaycan dövləti onun layiqli varisi Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən müasir dünyanın tələbləri səviyyəsində inkişaf etdirilərək dünya miqyasında önəmli yer tutmuşdur. Qazanılan bütün uğur, nailiyyətlərin və qələbələrin təməli tarixi şəxsiyyət, Azərbaycan dövlətçiliyinin xilaskarı, türk dünyasının böyük oğlu Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu Öndərin siyasi kursu Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Xalqımızla ordumuzun yenilməz birliyi və Müzəffər Ali Baş Komandanın möhtəşəm sərkərdəlik məharəti torpaqlarımızın işğalına son qoydu, ölkəmizin suverenliyi tam bərpa edildi.

Artıq 3 ildir ki, işğaldan azad edilmiş ərazilərimizdə geniş quruculuq və abadlıq işləri həyata keçirilir. Doğma ocaqlarını tərk etmiş soydaşlarımız yurd yerlərinə qayıdırlar. Otuz ilə yaxın işğalda olan ərazilərimizdə müstəqilliyimizin rəmzi olan üç rəngli bayrağımız qürurla dalğalanır.



* * *

Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə "N" hərbi hissəsində keçirilən anım mərasimində Ulu Öndər Heydər Əliyevin və ölkəmizin müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət himni səsləndirildi.

Mərkəzin əməkdaşları Mail Allahverdiyev, Nailə Qurbanova xalqımızın xilaskarı, Əbədiyaşar Komandan haqqında ətraflı məlumat verdilər. Türk dünyasının böyük oğlu, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin bugünkü və gələcək nəsillərə örnək olan mənalı, zəngin həyatı, dövlətçilik fəaliyyəti, müasir Azərbaycan dövlətinin yenidən qurulması və beynəlxalq aləmdə mövqeyinin möhkəmləndirilməsi istiqamətində misilsiz xidmətlərindən danışdılar:

- "Müstəqilliyin ilk illərində böhranlı vəziyyət, xaos, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı, düşmən qüvvələr fürsətdən istifadə edib iyirmi faiz torpaqlarımızı işğal etmişdilər. Belə mürəkkəb vəziyyətdə xalqımız Ulu Öndərə müraciət etdi. Bu müraciət cavabsız qalmadı.15 iyun 1993-cü ildə Ulu Öndər yenidən hakimiyyətə qayıtdı. Haqlı olaraq həmin günü xalqımız Qurtuluş Günü kimi tarixləşdirdi. Böyük qayıdışdan sonra ölkəmizin həyatında yeni dövr başlandı. Bütün sahələrdə inkişaf və yüksəliş təmin olundu. Yeni quruculuq strategiyası bütün sahələri əhatə etdi. Ordu quruculuğu dövlətçiliyin əsas prioritetinə çevrildi. Çox keçmədi ki, Azərbaycan Silahlı Qüvvələri regionun güclü, qüdrətli orduSuna çevrildi. 1994-cü ilin may ayında Ermənistanla atəşkəs müqaviləsi imzalandı. Bundan sonra ordu quruculuğuna daha çox diqqət yetirildi.

Dünyanın böyük dövlətlərinin iştirakı ilə "Əsrin müqaviləsi" adlanan neft kontraktı imzalandı. NATO ilə əməkdaşlığa başlandı. Azərbaycan Respublikası Avropa Şurasına üzv qəbul edildi. Ulu Öndərin böyük fədakarlığı ilə Azərbaycan həqiqətləri dünyaya bəyan edildi, Ermənistan işğalçı dövlət kimi tanındı.

Ulu Öndərin başladığı böyük quruculuq işləri onun layiqli varisi, Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Keçən iyirmi il ərzində ölkəmiz müasir dövrün tələbləri əsasında mütərəqqi inkişaf mərhələsinə daxil olmuş, regionun lider dövlətinə çevrilmişdir. Xalqımız, dövlətimiz üçün ən böyük, mürəkkəb problem sayılan torpaqlarımızın otuz ilə yaxın işğal altında qalmasına da Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik məharəti, ordu ilə xalqın yenilməz birliyi ilə son qoyuldu. İkinci Qarabağ müharibəsi tariximizə Böyük Qələbə kimi yazıldı".

Zabit İqbal Kərimov şəxsi heyət adından çıxış edərək bildirdi ki, Vətən müdafiəçiləri Ulu Öndərin ideya və əməllərinə həmişə sadiq olacaq, göstərilən etimadı doğruldacaqlar.

Sonda tarixi şəxsiyyətin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirildi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Onun zabitləri" sənədli filminin təqdimatı keçirildi. Tədbirdə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin (indiki Heydər Əliyev adına Hərbi İnstitut) ilk məzunları (1997-2001-ci il), film yaradıcı heyəti, bir qrup Vətən müharibəsi iştirakçısı, şairlər, ziyalılar və ictimaiyyət nümayəndələri iştirak etdilər.

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad olundu. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.



Təqdimatı giriş sözü ilə açan Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin əməkdaşı, Əməkdar mədəniyyət işçisi Zəminə Xınalı çıxışında bildirdi ki, Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi respublikamızın yaradıcı insanlarında böyük ruh yüksəkliyi yaratdı. "Ulu Öndərə dərin hörmət və ehtiram olaraq xalqımızın əbədiyaşar liderinə həsr olunan kitablar, şeir və poemalar yazıldı, filmlər hazırlandı. Onun Azərbaycanın dövlətçilik tarixində, müstəqilliyimizin əbədi, dönməz olmasında misilsiz xidmətləri olmuşdur. Ulu Öndər Heydər Əliyevin, dahi rəhbərin yaratdığı müasir hərbi təhsil ocaqlarının çağdaş Azərbaycan Ordusunun qüdrətlənməsində, daha güclü, daha peşəkar olmasında mühüm rolu olduğu Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazandığımız Böyük Qələbə ilə bir daha təsdiqləndi. 2023-cü il həm Ulu Öndərin anadan olmasının yüzüncü ildönümü kimi yaddaşlarda qalacaq, eyni zamanda, Azərbaycanımızın suverenliyinin, ərazi bütövlüyünün tam bərpa olunması ili kimi tarixləşəcəkdir".





Sonra Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Onun zabitləri" sənədli filmi tədbir iştirakçılarına nümayiş olundu.

Filmdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 2001-ci ildə ali hərbi məktəbin ilk buraxılış mərasimində iştirakı əsas süjet xətti kimi keçir. Ulu Öndərin xeyir-duası ilə hərbi xidmətin çətin və şərəfli yolunu mərdliklə keçən gənc zabitlərin Vətənimizin ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə fədakarlıq, qəhrəmanlıq nümunələri göstərməsi filmin mahiyyət etibarı ilə əsas ideyasını təşkil edir.

Həmin məzunlardan Qarabağ ordenli, ehtiyatda olan polkovnik Rəşad Aslanov, ehtiyatda olan polkovnik Xaqani Seyidov, ehtiyatda olan kapitan Azər Bayramov çıxış edərək Ulu Öndərin yaratdığı ali hərbi məktəbin məzunu olmalarından qürur duyduqlarını və hərbin çətin, şərəfli yollarına qədəmlərini qoyarkən birinci xeyir-duanı məhz Əbədiyaşar Komandandan aldıqlarını və onunla qarşılaşdıqları anları xoş xatirə kimi xatırlayacaqlarını dedilər. Fəxrlə bildirdilər ki, onun zabitidirlər.

Qeyd edək ki, Qarabağ ordenli Rəşad Aslanov Şuşaya daxil olan xüsusi təyinatlı qüvvələrin tərkibində döyüşərək, bu şəhərə ilk üçrəngli bayrağımızı sancanlardan olub. O, 2001-ci ildə ali hərbi məktəbi qırmızı diplomla bitirib. Məktəbin birinci buraxılış mərasimində iştirak edən Ulu Öndər qırmızı diplomu Rəşad Aslanova şəxsən özü təqdim edib. Ulu Öndərin məktəbin ilk məzunlarına diplom təqdim etməsi, kursantlarla unudulmaz görüşləri, səmimi söhbətləri "Onun zabitləri" filmində öz əksini geniş tapmışdır.

Təqdimatda çıxış edən filmin ssenari müəllifi, ATV kanalının İctimai proqramlar redaksiyasının baş redaktoru Vəfa Şəhlayi kanalın rəhbərliyi adından çəkilişlər zamanı yaradılan şəraitə, göstərilən yüksək diqqətə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığını ifadə etdi.

Tədbir iştirakçıları Aləmzər Sadıq qızı və Zərəntac Dəmirçi-Qayalının Vətən müharibəsində qazanılan Böyük Zəfərə, xalqımızın qəhrəman oğullarına həsr etdikləri şeirləri maraqla dinlədilər.

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Ulu Öndərin xatirəsini yaşadan mahnılar və qəhrəmanlığı, vətənpərvərliyi tərənnüm edən musiqilər ifa etdilər.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Milli Müdafiə Universitetinin nümayəndə heyəti UNEC-də olub





Cari ilin fəaliyyət planına uyğun olaraq, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması və onlara dövlətçiliyə sədaqət hisslərinin aşılanması məqsədilə keçirilən tədbirlər davam edir.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirlər çərçivəsində Milli Müdafiə Universitetinin (MMU) nümayəndə heyəti Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) olub, tələbələrlə görüşüb.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın suverenliyi, ərazi bütövlüyü, torpaqlarımızın azadlığı uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

UNEC-in professor-müəllim heyətinin də iştirak etdiyi görüşdə tələbələrlə gənc nəslin milli-mənəvi dəyərlərə sadiqlik, dövlətçilik və vətənpərvərlik ruhunda tərbiyəsi istiqamətində maarifləndirici söhbətlər aparılıb, onları maraqlandıran suallar cavablandırılıb.

Sonda elm və təhsil sahəsində əməkdaşlıq haqqında bir sıra məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

# Media nümayəndələri mühəndis-istehkam bölmələrinin fəaliyyətini izləyiblər



*Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələrinin fəaliyyəti nəticəsində azad edilmiş ərazilərimizdə cari ilin dekabr ayının 1-dən 12-dək olan müddət ərzində 134 hektaradək ərazi mina və partlamamış döyüş sursatlarından tam təmizlənib.*

Bundan başqa, təxliyə yollarının daim işlək vəziyyətdə saxlanılması, avtomobil və döyüş texnikası kolonlarının təhlükəsiz və fasiləsiz hərəkətinin təmin edilməsi məqsədilə qeyd olunan müddət ərzində 1069 m yol qar örtüyündən təmizlənib, 260 m yeni təminat yolları mühəndis-istehkam bölmələri tərəfindən çəkilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, azad edilmiş ərazilərdə 2023-cü il ərzində mühəndis-istehkam bölmələri tərəfindən ümumilikdə 6863 hektar ərazidən 234 ədəd piyada əleyhinə, 706 ədəd tank əleyhinə mina və 1405 ədəd partlamamış döyüş sursatı aşkarlanaraq zərərsizləşdirilib. Həmçinin 1730 metr yol qar örtüyündən təmizlənib, 13660 metr yeni təminat yolları çəkilib.

Mina təmizlənmə işlərində əsas səylər azad edilmiş ərazilərdə yaşayış məntəqələri, əkin sahələri, yollar və infrastruktur obyektlərinə yönəldilib.





Qarabağ iqtisadi rayonunda aşkar olunmuş mina və partlamamış döyüş sursatlarının bir qismi Ağdərə rayonunun "Gödəkburun" təlim mərkəzində partlatma və yandırma üsulları ilə məhv edilib.

Media nümayəndələri mina və partlamamış döyüş sursatlarının məhv edilmə prosesini izləyiblər.

Azad edilmiş ərazilərdə minaların və partlamamış döyüş sursatlarının aşkarlanaraq zərərsizləşdirilməsi, eləcə də mühəndis təminatı üzrə digər zəruri tədbirlər plana uyğun olaraq davam etdirilir.

# Komando bölmələri ilə taktiki-xüsusi təlim keçirilib

2023-cü ilin hazırlıq planına uyğun olaraq, komando bölmələri ilə taktiki-xüsusi təlim keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, ssenariyə əsasən, "Həyəcan" siqnalı ilə qaldırılan bölmələrə təxribat törətməyə cəhd edən şərti düşmən qruplaşmasının zərərsizləşdirilməsi üzrə tapşırıqlar verilib.

Ərazinin vizual müşahidəsi və hava kəşfiyyatının aparılması ilə şərti düşmən obyekti qiymətləndirildikdən sonra onun hərbi texnikası pusquya salınıb, qruplaşmanın üzvləri ələ keçirilib.

Meşəlik ərazilərdə keçirilən taktiki-xüsusi təlim zamanı qarşıya qoyulan bütün tapşırıqlar yüksək peşəkarlıqla icra edilib.



# Moskvada qvardiya generalı Həzi Aslanovun adına veteran təşkilatı təsis edilib

Moskvanın Qərb-İnzibati Dairəsinin (QİD) Oçakovo-Matveyevskoye rayonunun Veteranlar Şurasının binasında "İki dəfə Sovet İttifaqı Qəhrəmanı, qvardiya general-mayoru Həzi Aslanov adına Böyük Qələbə Varislərinin Birliyi" veteran təşkilatının yaradılmasına həsr olunmuş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, təşkilat QİD-in Azərbaycan Milli-Mədəni Muxtariyyətinin sədri Əli Kazımov, Moskva Müharibə Veteranları Komitəsinin İnformasiya Komissiyasının üzvü, QİD-in Azərbaycan Milli-Mədəni Muxtariyyəti sədrinin müavini İrina Silina, "Rusiyanın Əmək Şücaəti" Ümumrusiya İctimai Təşkilatının nümayəndəsi Valentina Dubinina və Hərbi-Kosmik Qüvvələrin veteranı, istefada olan polkovnik Çingiz Qafarov tərəfindən təsis edilib.

Tədbirdə Moskvanın Qərb-İnzibati Dairəsinin Oçakovo-Matveyevskoye rayonunun Veteranlar Şurasının sədri, kontr-admiral Sergey Streltsov, general-mayor Valentin Kurnışov, Rusiyanın Ehtiyatda olan Zabitlər İttifaqı sədrinin birinci müavini Anatoli Juravlyov, hərbi veteranlar Yaşar Cəfərov, İlqar Məmmədov və başqaları iştirak ediblər.

Tədbir zamanı təşkilatın 2024-cü il üçün fəaliyyət planı qəbul edilib. Təşkilatın Moskva Müharibə Veteranları Komitəsinin tərkibinə daxil olması barədə qərar qəbul olunub.



*Medallı igidlərimiz*

# Təlimdən qələbəyə gedən yol...

Zabit Zahid Həsənov nümunəvi zabitlərdən söz düşəndə o, mayor İlkin Ağazadənin adını çəkdi. - Hazırda təlim sahəsində bölmələrin praktiki çalışmalarının yerinə yetirilməsinə nəzarət edir, - deyə bildirdi. Çox keçmədi səhra geyimində şux qamətli, ortaboy zabit qərargaha daxil oldu. Bu Z.Həsənovun bayaqdan barəsində xoş sözlər dediyi İlkin Ağazadədir. Zabitlə ilk tanışlığımız elə buradan başladı.

İdmançı görkəmli, səmimi, gülərüz zabit ilə qərargahdan çıxıb onun şəxsi heyətə təlim keçdiyi əraziyə getdik. Müsahibim olduqca maraqlı, zəngin hərbi təcrübəyə malik peşəkar döyüşçüdü.

Astara şəhərində doğulan İlkin Bakıda böyüyüb. Kiçik yaşlarından hərbçi olmaq onun ən böyük arzusu olub. Bu arzu, bu istək onu əvvəlcə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə, daha sonra isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) gətirib. O, hərbi təhsil aldığı illərdə motoatıcı ixtisası üzrə həm nəzəri, həm də praktiki bilikləri dərindən mənimsəyib. O, da başqaları kimi bilirdi ki, Vətənin bir hissəsi düşmənin işğalı altındadı. Bu torpaqları azad etmək hərbçilərin vəzifəsidi. Ali hərbi məktəbi bitirəndən sonra "leytenant" hərbi rütbəsiylə cəbhə bölgəsində xidmətə başlayıb.

Düşmənlə təmas xəttində uzun sürən atəşkəsdən sonra Azərbaycanın hərb tarixinə daxil olan Aprel döyüşlərində İlkin Ağazadə də iştirak edib. O, həmin döyüşləri belə xatırlayır:

- Tapşırığımız Talış yaşayış məntəqəsi istiqamətində əhəmiyyətli yüksəkliklərin azad edilməsi idi. Qarşımızda düşmən sədləri vardı. Neçə illər idi ki, ermənilər o yerlərdə möhkəmlənmişdilər. Əraziyə də yaxşı bələd idilər. Həm gündüz, həm də məhdud görmə şəraitində bizim hansı istiqamətdən onların mövqelərinə daxil olacağımızı dəfələrlə götür-qoy etmişdilər. Bunun üçün onların kifayət qədər vaxtları da olmuşdu. Belə bir hazırlıqlı düşmənin üzərinə hücum etmək və məqsədimizə nail olmaq çətin tapşırıq idi. Lakin biz bunun öhdəsindən gəldik.

O zaman gənc leytenant elə zənn etmişdi ki, döyüşlər davam edəcək. Sonuncu silahlı düşmən tarixi torpaqlarımızdan çıxana qədər bölmələrimiz hücuma ara verməyəcək. İlkin də döyüşə-döyüşə on illərdi işğalda qalmış torpaqlarımızı azad edəcək. Düşmən 90-cı illərin əvvəlində olduğu kimi, döyüşlərdə məğlubiyyətə düçar olan kimi atəşkəsə can atırdı. Sülh, diplomatik yolla ərazilərimizin qaytarılmasına razı olduqlarını vəd edərək vaxt qazanmaq istəyirdi. İstəyirdi ki, cəbhənin həmin istiqamətinə əlavə qüvvə toplasın. Bu, qəsbkarların həmişə seçdiyi çıxış yolu idi. Aprel döyüşlərindən sonra mə-



lum oldu ki düşmənin sülh bağlamaq barədə fikri yoxdu. Əksinə, cəbhə boyu istehkamlar qurur, mövqelərini daha da möhkəmləndirirdi. Hətta "Ohanyan səddi"ni də bir az genişləndirdi. Döyüşü idarə etmək üçün yerin altında dəmir-beton konstruksiyadan ibarət müxtəlif yerlərdə bunkerlər düzəltdi. Ermənilərin bu hazırlığı tutduqları mövqelərə ciddi müqavimət göstərəcəklərindən xəbər verirdi.

27 sentyabr 2020-ci il tarixində ermənilərin təxribatı nəticəsində Vətən müharibəsi başladı. Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı qismən səfərbərlik elan edərək əks-hücum əmrini verdi. İlkin Ağazadə də ilk döyüşə gedənlərdən biri oldu. Artıq bu dəfə İlkin tam fərqli istiqamətdə və daha qətiyyətli döyüş tapşırığı icra edəcəkdi. Döyüşün ilk günlərində Füzulidə qəlpə yarası aldı. Bir neçə gün hospitalda müalicə olundu. Sağlamlığı bərpa olunduqdan sonra yenə döyüşə qayıtdı. Xocavənd, Cəbrayıl, Qubadlı rayonlarının azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etdi. Noyabrın 7-də Qubadlı uğrunda döyüşdə İlkin Ağazadə düşmənin gülləsindən yayına bilmədi. Döyüşü dayandırmaq məcburiyyətində qaldı. Tezliklə sağalıb silahdaşları ilə döyüşü davam etdirmək arzusunda olsa da, üç gündən sonra düşmən kapitulyasiya aktını imzaladı.

İlkin Ağazadə hərbi xidmətdə qazandığı uğurlara görə komandanlıq onu vaxtından əvvəl "kapitan" hərbi rütbəsini təqdim etmişdi. Biz onunla təlim şəhərciyini gəzəndə də "kapitan" hərbi rütbəsində idi. Lakin iki gündən sonra yazını çapa hazırlayanda ona növbəti "mayor" hərbi rütbəsinin təqdim olunduğu barədə məlumat aldıq.

İlkin Ağazadə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə döyüşlərdə fərqləndiyinə görə "Vətən uğrunda", "İgidliyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif olunub. Xidmət etdiyi illər ərzində müxtəlif beynəlxalq kurslarda iştirak edib.

...Mehriban, səmimi, qayğıkeş döyüş yolu keçmiş zabiti dinləmək olduqca xoş idi. Hazırda o, əsgər və kursantlarının cəlb olunduqları ixtisas kurslarını uğurla başa vurması üçün səylə çalışır. İndi onu ancaq poliqonda, təlim şəhərciyində görmək mümkündür. İlkin deyir ki, təlimlərdən başlayan yol döyüşdə qələbə ilə bitməlidi.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Nümunəvi əsgər nümunəvi düşünür

"Necə əsgərə yaxşı əsgər deyirsiniz?" - soruşdum. Baş leytenant Kənan Rzayev əsgərlərə baxdı, sonra sualın mahiyyətində gözəl bir dərk olduğunu qət edib söhbəti təkcə mənimlə deyil, ətrafdakı əsgərlərlə də davam etdirdi:

- Çağırışçıların hamısı hərbi xidmətə təxminən eyni yaşda başlayır. Bəzisi ali təhsilli olur. Təhsilin xarakterə, dünyaduyumuna, müqəddəsliyə, münasibətə təsiri az da olsa var, ancaq bunu tamamilə müəyyənləşdirmir. Bu, güclü xarakterdən, Vətənə sevgidən üstün ola bilmir, bilməz də. Ona görə də yaxşı əsgər ifadəsi başlanğıcını Vətənə sevgidən, dünyaduyumundan, bəyənilməsi xarakterdən, milli mentalitetə bələdlikdən götürür. Milli mentalitetə görə böyüklərin dediklərini yerinə yetirməlisən. Hərbi xidmətdə böyük kəlməsinin nəyi ifadə etdiyini əsgərlərin hamısı yaxşı bilir. Həm də Hərbi And. Yəni, əsgərin yaxşı əsgər olmasını mənən tələb edən amillər hamısı üçün eynidir.

Yaxşı əsgər Hərbi Nizamnamələrin tələblərini düzgün yerinə yetirənlərəmi aid edilir?, - soruşdum. Məlum oldu ki, yaxşı əsgər Nizamnamələrin tələblərini



də yerinə yetirir, komandirlərin əmr və göstərişlərini də. Bunlarla bir sırada ünsiyyətcilliyi, dövlətçiliyə sədaqətli olduğu kimi, dostluğa da sədaqətliliyi ilə tanınır.

Mənə elə gəldi ki, baş leytenant bu fikirləri əhatəmizdə olan bütün əsgərlərə şamil etmək fikrindədi...

Yaxşı əsgər nümunəvi əsgər deməkdi, nümunəvi əsgər - yaxşı əsgər... Yaxşı əsgərlərin əhatəsində səmimi söhbətin bugünkü xidmətdən sabahkı xidmətə düşən işıq olacağına biz də inanırıq, əsgərlər də inanırlar...

Baş leytenant Kənan Rzayev əsgər İlham Əliyevlə söhbətləşməyimizi istəyir.

İlham İsmayıllı rayonundandır, indi 19 yaşı var. Hərbi xidmətə başlayanda zirehli texnikalar operatoru hərbi ixtisasına yiyələnib.

- İlk vaxtlar bu ixtisas o qədər də könlümə yatmırdı. Hərbi xidmətə gəlməmişdən əvvəl qonşumuzla söhbətlərimizdə təlimlər haqqında çox eşitmişdim. Mənə elə gəlirdi ki, belə təlimlərdə olmayan əsgər hərbi xidmətdən aralı düşür. Az sonra gördüyümüz, yerinə yetirdiyimiz işin mahiyyətini dərk edəndə nəinki fikrim dəyişdi, həm də bu hərbi ixtisası ürəkdən sevdim. Komandirimizin Vətən müharibəsindən təəssüratları, müharibənin döyüşləri haqqında danışdıqları digər əsgərlərimiz kimi, məni də həmişə qürurlandırıb. Digər əsgər yoldaşlarım kimi mən də əmin olmuşam ki, hərbi xidmətdə bütün hərbi ixtisaslar gərəklidir, vacibdir. Bayaqkı söhbətin davamı kimi deyə bilərəm ki, yaxşı əsgərin öz hərbi ixtisasını sevməsi onun mənəvi borcu, xidməti vəzifəsidir, digər münasib ixtisasları da bilməsi onun hərbi xidmətə, deməli, dövlətçiliyə sədaqətinin səviyyəsini müəyyənləşdirir...

Yaxşı əsgər günün nizam qaydalarına əməl edir. Əmr və tapşırıqları vaxtında, sözsüz yerinə yetirir. Bunlar onun bilavasitə yerinə yetirməli olduğu vəzifələrdəndir. Yaxşı əsgər Nizamnamələrlə müəyyənləşdirilməmiş xarakteri ilə də fərqlənməlidir. Vətən naminə.

Yaxşı əsgər sinəsini sipər etməlidi ki, Vətənə zərbə dəyməsin. Vətən müharibəsində Azərbaycan Ordusunun hərbi qulluqçuları belə döyüşdülər, tarixi Zəfəri belə qazandılar.

- Qürurlanırıq ki, nümunəvi xidmətimizlə qalib əsgərlərin davamçılarıyıq, - əsgər İlham Əliyev qətiyyətlə belə dedi.

Nümunəvi əsgərin düşüncələri də nümunəvi olur. Belə düşüncələr işığını Vətənə sevgidən götürür...

**Rəşid HÜSEYNOV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Bayden ABŞ-ın Ukraynaya yeni hərbi yardım paketini təsdiqləyib



ABŞ Ukraynaya 200 milyon dollarlıq yeni hərbi yardım paketinin ayrılmasını təsdiqləyib.

Bu barədə Ağ Evin mətbuat xidməti məlumat yayıb.

Amerika prezidentinin sözlərinə görə, ABŞ Konqresi Kiyevi dəstəkləmək üçün əlavə maliyyə ayrılması barədə razılığa gəlməlidir.

Bundan əvvəl Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bəyan etmişdi ki, Birləşmiş Ştatlar Konqresin mövqeyi fonunda Ukraynaya yardımın davam etdirilməsi ilə bağlı heç bir təminat verə bilməz.

## "Taliban" hərəkatı Pakistanda törədilən terror aktı ilə heç bir əlaqələrinin olmadığını bildirib



"Taliban" hərəkatının Pakistanda baş verən terror aktı ilə heç bir əlaqəsi yoxdur və İslamabadın ittihamları ilə bağlı təhqiqat aparmağa hazırdır.

"Taliban" hərəkatının Əfqanıstanda formalaşdırdığı müvəqqəti hökumətinin nümayəndəsi Zabihullah Mücahid bu barədə Reuters agentliyinə deyib.

Dekabrın 12-də Pakistanda fəaliyyət göstərən "Təhrik-i-Cihad Pakistan" qruplaşmasının üzvləri Xeybər-Pahtunhva əyalətinin Daraban rayonunda ölkənin təhlükəsizlik qüvvələrinin postuna hücum edib. Kamikadzenin idarə etdiyi partlayıcı ilə dolu avtomobilin hərbçilərin yerləşdiyi məktəb binasına çırpılması nəticəsində təhlükəsizlik qüvvələrinin 23 əməkdaşı həlak olub.

Pakistan XİN Əfqanıstanın ölkədəki diplomatik nümayəndəsini xarici siyasət idarəsinə çağıraraq Kabildən hadisə ilə bağlı təhqiqatın aparılmasını, hadisəni açıq şəkildə pisləməyi, hücumun iştirakçılarını və təşkilatçılarını İslamabada təhvil verməyi tələb edib.

"The Express Tribune" qəzetinin məlumatına görə, Pakistan hökuməti "Təhrik-i-Cihad Pakistan" qruplaşmasının Əfqanıstandakı mövqelərinə zərbələr endirmək imkanını da nəzərdən keçirir.

## Böyük Britaniya Ukraynaya yeni hərbi texnika göndərəcək



Böyük Britaniya Ukrayna Hərbi Dəniz Qüvvələrinin imkanlarını genişləndirmək üçün 23 sürətli kater və 20 "Vikinq" tipli texnikanın da daxil olduğu yeni hərbi yardım partiyası tədarük edəcək.

Bu barədə Böyük Britaniyanın müdafiə naziri Qrant Şepps deyib.

Bir neçə il əvvəl Britaniya Silahlı Qüvvələrində silahlanmaya qəbul olunan həmin katerlər sürətli təxribat əməliyyatları və ya desant çıxarılması üçün nəzərdə tutulub.

NATO-nun Baş katibi Yens Stoltenberq isə öz növbəsində Macarıstan, Slovakiya və Niderlandın siyasi mövqelərinə baxmayaraq, NATO-nun Ukraynanı dəstəkləməyə davam edəcəyini vurğulayıb. Onun sözlərinə görə, alyans yardımın nə qədər vacib olduğunu görür və onun həm həcmini, həm də təminat tempini artırmalı olduğunu anlayıb.

Qeyd edək ki, bir müddət öncə Böyük Britaniya Müdafiə Nazirliyi Qara dənizdə təhlükəsizliyin artırılması üçün Kiyevə "Sandown" sinfinə aid iki mina axtaran gəmi verəcəyini açıqlayıb. Eyni zamanda, Birləşmiş Krallıq və Norveç Kiyevə hərbi yardım etmək istəyən ölkələrin də daxil olacağı yeni dəniz koalisiyasının yaradıldığını elan edib.

**AZƏRTAC-ın materialları əsasında**

# Naxçıvandan Şuşaya uzanan şərəfli yol



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev: "İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".

Sentyabr ayı Azərbaycan tarixində bir çox hadisələrlə yadda qalıb. Bu ilin sentyabrı isə lokal xarakterli antiterror tədbirlərinin başlanılması və düşmənə növbəti layiqli cavab verilməsi ilə tarixin yaddaşına yazıldı. Azərbaycan öz suverenliyini tam bərpa etdi. Bu, Azərbaycanın daha bir böyük qələbəsi idi. Yüksək peşəkarlıqla strateji hədəflərə nail olundu, kommunikasiyalar və yüksəkliklər nəzarətə götürüldü.

20 sentyabr tarixində Prezident İlham Əliyev Silahlı Qüvvələrin peşəkarlığı, texniki imkanları sayəsində antiterror tədbirlərinin qısa zamanda və uğurla başa çatmasını yüksək qiymətləndirərək xalqa müraciətində demişdir: "Qarabağ Azərbaycan ərazisidir və bunu bütün dünya tanıyır, o cümlədən Ermənistan rəhbərliyi artıq bunu başa düşüb. Bizim bütün addımlarımız legitimdir, hüquqidir, ədalətlidir və bütün addımlara görə biz həm məsuliyyət daşıyırıq, həm qürur hissi keçiririk. Yenə də deyirəm, antiterror tədbirləri yüksək peşəkarlıqla, dəqiqliklə elə aparıldı ki, mülki əhali zərbə altına düşmədi, mülki infrastruktura zərər vurulmadı. Ancaq düşmən mövqeləri, onların silahları, texnikaları məhv edildi".

27 sentyabr - böyük zəfərə aparan o tarixi gündən bizi 3 illik zaman kəsiyi ayırır. Vətən müharibəsində canlarından keçmiş şəhidlərimizə ehtiramın ifadəsi olaraq 27 sentyabr Anım Günü kimi tarixə düşüb. Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında şanlı ordumuz illərdir düşmən tapdağında olan torpaqlarımızı azad etdi. Bizə qələbə sevincini yaşadan ordumuz həm də öz gücünü, qüdrətini bütün dünyaya nümayiş etdirdi. Ordumuzla bir daha qürur duyduq.

Qarşımda fotolar var. İgidlərimizin əks olunduğu fotolar. Danışan fotolar. Vətənpərvərliyin, mübarizliyin, cəsurluğun tablosudur deyərdim. Fotolar həm də əminlik hissi yaradır: Belə ordusu olan Vətən bir daha basılmaz! Vətən müharibəsində qəhrəmanlıq göstərən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarının döyüşdən geriyə qalan xatirələridir. O xatirə səhifəsini vərəqlədikcə bunları oxuyursan:

Müharibə, dəhşətdir, fəlakətdir, itkidir, qandır. Lakin azadlıq uğrunda hər cür müharibə müqəddəsdir. Bu müqəddəs yola Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları da qatıldı, həm də şövqlə, böyük bir vətənpərvərlik duyğusu ilə. Ürəklərində Vətən eşqi, gözlərində intiqam polad biləkli oğullar heç Qarabağı görməmişdilər. Qarabağın gözü Şuşa haqqında sadəcə kitablardan oxumuş, kadrlardan izləmişdilər. Amma nə fərqi, Vətən elə Vətəndir, hər qarışı müqəddəsdir. Dağına, daşına nabələd müqəddəs yolun yolçuları doğma Naxçıvan elindən ta Şuşayacan yol qət etdilər. Füzuli-Xocavənd, Füzuli-Şuşa istiqamətində döyüş yolu keçən Naxçıvan xüsusi təyinatlıları bu yolda çətinliklərə sinə gərdilər, silahdaşlarını itirdilər, lakin bir addım belə geri çəkilmədilər. Çox mürəkkəb relyefə malik ərazilərdə peşəkarlıq nümunəsi göstərərək düşmənin qurduğu pusquları yardılar. Verilən hər bir tapşırıq uğurla yerinə yetirildi. Döyüş tapşırıqlarının yerinə yetirilməsində Naxçıvan xüsusi təyinatlıları əsasən Füzuli şəhərinin işğaldan azad olunması, Füzuli-Tuğ yolu üzərində pusquların qurulması, Axullu, Edilli, Ağbulaq, Düdükçü kimi yaşayış məntəqələrinin düşməndən təmizlənməsinə cəlb olundu. Füzuli yaşayış məntəqəsindən Şuşa yaşayış məntəqəsinədək çoxlu dağlıq və meşəlik ərazilər mövcud idi. Dağlıq və meşəlik ərazilərdə hakim yüksəkliklərdə düşmən bölmələri oturmuşdu. Bu istiqamətdə Meştaqlar, Azox kimi yaşayış məntəqələri, Zardanaşen, Taqavard, Daşaltı yaşayış məntəqəsinin və sonda isə Şuşa şəhərinin azad olunması qarşıya qoyulan tapşırıqlardan idi. Düşmən qüvvələri illərdir qurduğu istehkama və yerləşdiyi əlverişli mövqelərə rəğmən xüsusi təyinatlıların qarşısında aciz qaldı. Məğlubiyyətə doğru getdiyini anlayan düşmən Şuşa şəhərinin müdafiəsini gücləndirməyə başlayır. Taqavard yaşayış məntəqəsi, onun ətrafında olan hakim yüksəkliklər, Çanaqçı, Sığnaq yaşayış məntəqələri düşməndən təmizləndikdən sonra növbəti hədəf oradakı hakim yüksəklik idi ki, düşmən həmin yüksəkliyə çox dəyər verirdi. Bu, təminat-təxliyə yollarına və digər yol kəsişmələrinə nəzarət etmək üçün əlverişli yüksəklik idi. O yüksəkliyin nəzarətə götürülməsində Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarının çox böyük rolu olur. Həmin yüksəklik nəzarətə keçdikdən sonra 4 noyabr tarixində Şuşa-Laçın yolu, 5 noyabr tarixdə isə Xankəndi-Şuşa yolu kəsilir. Düşmən Xankəndi-Şuşa yolunun kəsilməsini ehtimal etməmişdi. Əsas qüvvəni Şuşa-Laçın yolu üzərində cəmləşdirmişdi. 5-7 noyabr tarixlərində həmin istiqamətdə ağır döyüşlər gedir.

Füzulidən Şuşa şəhərinədək şərəfli döyüş yolu keçən Naxçıvan Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlıları döyüş tapşırıqlarının icra edilməsində digər qoşun növlərinin xüsusi təyinatlıları ilə birgə şücaət göstərir. Noyabrın 8-i Şuşa düşməndən tamamilə azad edilir. Şuşa İcra hakimiyyətinin binasına bayraq sancan hərbi qulluqçular sırasında Naxçıvan heyəti də iştirak edib. Şuşanın azad olunmasında onların xidmətləri danılmazdır. Hazırda xidmətlərini davam etdirən cəsur hərbçilərimizin peşəkarlığı sayəsində Naxçıvan heyəti az itki ilə döyüşdən üzüağ Naxçıvana qayıdıb. Əlahiddə Ümumqoşun Ordunun xüsusi təyinatlılarından şəhadətə ucalanlar da oldu. Hər birini ehtiramla anırıq. Hansı ki, həmin qəhrəmanların bir neçəsi haqqında yazmışıq və yazmaqda davam edəcəyik.

Düşmənlə üzbəüz, çətin və mürəkkəb şəraitdə şücaət göstərən qəhrəmanların böyük əksəriyyəti xidmətini ordu sıralarında davam etdirir. Döyüşçülərdən bir nəfər "Zəfər", bir nəfər "Qarabağ", 18 nəfər "Azərbaycan bayrağı", 12 nəfər "Rəşadət" ordeni ilə təltif olunub. 4 nəfər Vətən Müharibəsi Qəhrəmanı adına layiq görülüb. Digər hərbi qulluqçular da Vətən müharibəsində göstərdikləri şücaətə görə müvafiq medallarla təltif olunmuşlar.

Ulu babalarının döyüşkənlik ruhunu qanlarında daşıyan Naxçıvan xüsusi təyinatlıları Qarabağda qanlarıyla tarix yazdılar. Həmin döyüşlərin canlı şahidi olmasaq da, döyüşçülərin əlimizdə olan foto və videolarından onların hansı ruh və qələbə əzmi ilə bu döyüşə atıldıqlarını təsəvvür etmək heç də çətin deyil.

**Ruhiyyə RƏSULOVA**
**Naxçıvan televiziyasının baş redaktoru**




Radar böyük məsafədə və ya görünüş dairəsindən kənarda olan obyektlərin aşkar edilməsi üçündür.

1911-ci ildə Amerika yazıçısı Hyu Ceymsbek öz elmi-fantastik əsərlərinin birində indiki radarlar kimi işləyən bir cihaz haqqında yazırdı. O zamandan bir çox alimlər onun bu xəyallarının həyata keçirilməsi üçün yollar axtarırdı, lakin uzun müddət lazım olan nəticələri ala bilmirdilər.

Ancaq 1935-ci ildə Robert Uotson Uatt adlı ingilisə təyyarəni görmədən 50 kilometr məsafədən onun uçuşunu izləmək müyəssər oldu. O bunu radarın köməyi ilə yerinə yetirdi. Beləliklə, müasir radar antena vasitəsi ilə elektromaqnit dalğaları şüalandıran cihazdır. Dalğalar çox böyük məsafəyə yayılır və öz yolunun üstündə hər hansı obyektə rast gəldikdə ondan əks olunaraq öyrənmə yerinə geriyə, yəni radarın antenasına qayıdır. Radar əks olunmuş dalğanı qəbul edir, ona əsasən təyin edir ki, obyekt hansı məsafədə yerləşir və bu məsafəni xüsusi ekranda qeyd edir.

**"Azərbaycan Ordusu"**

# İdman

## Avropa Liqası: “Qarabağ” tarixi uğura imza atıb



Qarabağ" UEFA Avropa Liqasının qrup mərhələsində sonuncu oyununu keçirib.

Azərbaycan çempionu H qrupundakı altıncı matçında Bakıda İsveçin "Hekken" komandasını qəbul edib.

Tofiq Bəhramov adına Respublika Stadionunda oynanılan qarşılaşma "köhlən atlar"ın 2:1 hesablı qələbəsi ilə başa çatıb.

Görüşdə hesab erkən qolla açılıb. Azərbaycan çempionunun heyətində Leandro Andrade birinci dəqiqədə komandasını önə keçirib. İlk hissənin əsas vaxtına əlavə olunmuş dördüncü dəqiqədə isə Yassin Benzia baxımlı zərbə ilə ikinci topu qonaqların qapısından keçirib.

Bu qələbə ilə ağdamlılar Azərbaycan futbolunda yeni tarix yazıb. Xallarını 10-a çatdıran komanda ilk dəfə Avropa Liqasında pley-off mərhələsinə vəsiqə qazanıb.

Pley-off mərhələsində "Qarabağ" Çempionlar Liqasında öz qrupunu üçüncü pillədə başa vuran komandalardan biri ilə qarşılaşacaq.

## Azərbaycan ağırlıqqaldıranı Qran-Pri yarışında qızıl medal qazanıb




Azərbaycan ağırlıqqaldıranı Dadaş Dadaşbəyli Qətərin paytaxtı Dohada keçirilən Beynəlxalq Ağırlıqqaldırma Federasiyasının II Qran-Pri yarışının qalibi olub.

109 kiloqram çəki dərəcəsində çıxış edən atlet birdən qaldırmada 176 kiloqramı ram edib və bu hərəkətdə qızıl medal qazanıb.

O, təkanla qaldırma hərəkətində isə 212 kiloqramı başı üzərinə qaldıraraq gümüş medala sahib çıxıb.

Toplam 388 (176+212) kiloqram nəticə göstərən D.Dadaşbəyli yekun sıralamada da hamını qabaqlayıb və öz çəkisində çempion olub.

Qeyd edək ki, "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya xarakterli turnirdə 70-dən çox ölkədən 382 (176 qadın + 206 kişi) atlet iştirak edib.

## Azərbaycan komandası oxatma üzrə beynəlxalq turnirdə bürünc medal qazanıb



Rusiyanın Zabaykal diyarında Əməkdar idman ustası Vladimir Yeşeyevin mükafatları uğrunda kamandan oxatma üzrə beynəlxalq turnir keçirilib.

Yarışda Azərbaycanın qızlardan ibarət komandası bürünc medala layiq görülüb.

Turnirdə 17 ölkədən (Rusiya, Azərbaycan, Ermənistan, Belarus, Qazaxıstan, Qırğızıstan, Çin, Kolumbiya, Latviya, Meksika, Pakistan, Rumıniya, Tacikistan, Türkmənistan, Türkiyə, Özbəkistan, Şri-Lanka və Cənubi Koreya) ən güclü 530 oxatan iştirak edib.

## Azərbaycan karateçiləri İtaliyada iki medal qazanıblar




Karate üzrə Azərbaycan yığması İtaliyanın Venesiya şəhərində gənclər arasında Karate 1 Liqasını iki medalla başa vurub.

Kumite üzrə yarışda Fərid Hacızadə fəxri kürsünün iki pilləsinə qalxıb.

Kata növündə isə Salman Salmanov bürünc medal uğrunda görüşdə rəqibinə qalib gələrək üçüncü yeri tutub.

**AZƏRTAC-ın materialları əsasında**

Kapitan Əliyev Emil Mərdan oğluna məxsus MN № 0047493 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi | Bəxtiyar ƏLİYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. “Azərbaycan Ordusu” qəzeti kompüter mərkəzində səhifələnərək “Hərbi Nəşriyyat”ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 972 Nüsxə 4752 |